Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondu
KİVDF
www.kivdf.gov.az
Layihənin istiqaməti:
"İctimai və dövlət maraqlarının müdafiəsi"

# "Qaraqalpaq ədəbiyyatı"

## Professor Nizami Məmmədov-Tağısoyun dərsliyi böyük, həm də uğurlu yolun başlanğıcı istiqamətində atılan mühüm addımdır

**Azərbaycan müstəqillik əldə etdikdən sonra görülən ən uğurlu işlərdən biri də türk xalqlarının qarşılıqlı mədəni əlaqələrinin öyrənilməsi sahəsində atılan addımlardır. Aparılan araşdırmalar, monoqrafik təhlillər qarşılıqlı əlaqələrin genetik mahiyyətini, etnosun keçib gəldiyi yolu, tarixi yaşam tərzini, düşüncə paralellərini, ilkin dəyərlərə hansı səviyyədə sədaqətini öyrənmək üçün mühüm əsas verir.**

Ulu öndərimiz Heydər Əliyev "Kitabi-Dədə Qorqud"un 1300 illik yubileyi ilə bağlı tarixi çıxışında bir məsələni vurğulayırdı ki, biz kimik, haradan gəlmişik, haradayıq və haraya gedirik. Bu kimi suallara məhz tarixi abidələrimiz aydınlıq gətirir. Doğrudan da, tarixi abidələrimizə, etnosun enerji qaynaqlarına diqqət yetirdikdə bir daha aydınlaşır ki, xalqın milli-mənəvi mədəniyyətindən böyük sərvəti yoxdur. Tanınmış ədəbiyyatşünas alim, filologiya üzrə elmlər doktoru, professor ***Nizami Məmmədov -Tağısoyun "Qaraqalpaq ədəbiyyatı" (Bakı, Elm və təhsil, 2015)*** dərsliyi də məhz bu böyük sərvətə marağın nəticəsi kimi ortaya çıxmışdır. Qaraqalpaq ədəbiyyatı türk xalqlarının yaratdığı böyük mədəniyyət müstəvisində mühüm bir hissədir. Məlum olduğu kimi, türkün keçib gəldiyi yol cahanşümül dövlət ideyaları, bəşəri dəyərlərin zənginliyi, yaradıcı xarakteri ilə səciyyələnir. Ədəbiyyatşünas-alim həmin zənginliyi vurğulayaraq yazır: "Etnik kökləri etibarilə sak-sarmatmassaget və türk mədəni ənənələrindən qaynaq alan qaraqalpaqlar özünəməxsus mədəniyyətə malik olmaqla, təbəddülatlarla dolu dramatik tarixə malikdirlər. "Qaraqalpaq" sözü ilk dəfə elmi-tarixi dövriyyəyə XVI əsrin sonlarında daxil edilmişdir.

Qaraqalpaqlar əsrlər boyu milli və dövlət müstəqillikləri uğrunda mübarizə aparmışlar. Müxtəlif tarixi mərhələlərdə onlar Xarəzm, Buxara, Fərqanə, Orta və Böyük Cuzun tərkibinə daxil olmaqla uzun müddət ərzində cunqarlar (kalmıklar), Nadir şahın ordusuyla döyüşlər aparmışlar. Qaraqalpaqların uzun zaman kəsiyində öz aralarında tayfalararası, qəbilələrarası qanlı davaları səngiməmiş, nəticədə xalqın sayı xeyli dərəcədə azalmış və o, zəifləyib qüvvətdən düşmüşdür.

Yalnız XX əsrin əvvəllərində qaraqalpaqlar əvvəl Muxtar Vilayət, sonra Qaraqalpaq Sovet Sosialist Muxtar Respublikası kimi quruma malik ola bilmişlər. XX əsrin 90-cı illərindən Özbəkistan Respublikasının tərkibində Qaraqalpaq Respublikası yaradılmışdır" (səh. 4). Verdiyimiz nümunə dərsliyin "Giriş" bölməsindəndir. Tədqiqatçı alim məhz bu bilgi ilə qaraqalpaqlar haqqında bütöv təsəvvür yarada bilir. Məlum olduğu kimi, türklər bəşər sivilizasiyasına böyük mədəniyyət bəxş etmiş xalqlardandır. Onların zəngin maddi və mənəvi mədəniyyəti, yaratdığı böyük dövlət ənənələri öz enerji qaynağı etibarilə ilkin təsəvvürlərə qədər gedib çıxır. Məsələlərə bu müstəvidə diqqət yetirdikdə türkün böyük mədəniyyəti timsalında hələ açılmalı çox səhifələrin olduğu aydınlaşır. Dünya elminin bəşər mədəniyyətinin ilkin ocaqlarından biri olaraq XVIII əsrdən Şərqə sistemli maraq göstərməsi sırf reallığa bağlanır. Məhz bu mədəniyyətlərin ilkin qaynaqlarının aydınlaşması, inkişaf tendensiyası, qarşılıqlı əlaqələri, yararlanmalar, təsir istiqamətləri sinxron, diaxron araşdırmaları gərəkli edir.

Nizami Məmmədov-Tağısoyun "Qaraqalpaq ədəbiyyatı" dərsliyində təkcə qaraqalpaqlar deyil, bütünlükdə türk xalqları boy göstərir. Düzdür, ədəbiyyatşünas- alim bütün məsələlərə Qaraqalpaq ədəbiyyatı kontekstində yanaşır. Ancaq unutmayaq ki, türk xalqları mədəniyyət, genetik yaddaş, etnosun dəyər sistemi baxımından bir-biri ilə o qədər bağlıdırlar ki, biri digərini bu və ya digər dərəcədə ehtiva edir. "Mündəricat" (kitabda "İçindəkilər" adı ilə verilir) bölməsindəki başlıqlar tədqiqatçının Qaraqalpaq ədəbiyyatına bütöv şəkildə yanaşdığını göstərir. Eyni zamanda o da aydınlaşır ki, Nizami müəllim uzun illərin zəhməti olaraq bu dərsliyi ərsəyə gətirmişdir. Kitabdakı fəsillər ("Qaraqalpaqıstan və qaraqalpaqlar haqqında ümumi məlumat", "Xəzərlərin, qaraqalpaqların, qarapapaqların və qaqauzların etnogenetik tarixi birliyinə dair", "Qaraqalpaqların dastan yaradıcılığı", "Qırx qız" və onun qaraqalpaq xalqının tarixində və bədii yaradıcılığında yeri", "Qaraqalpaq şifahi xalq yaradıcılığı", "Qaraqalpaq xalq nəğmələri", "Qaraqalpaq mərasimləri və inancları", "Qaraqalpaq musiqisi və tətbiqi sənəti", "Qaraqalpaq hazırcavablığı və qaraqalpaq lətifələri", "Qaraqalpaq nağılları", "XVIII-XIX əsrlər qaraqalpaq ədəbiyyatı", "XX əsr qaraqalpaq ədəbiyyatı", "Qaraqalpaq nəsrinin təşəkkülü, formalaşması və inkişafı", "Qaraqalpaq dramaturgiyasının və teatrının inkişaf mərhələləri və özünəməxsus xüsusiyyətləri", "Qaraqalpaq folklorşünaslığı", "Qaraqalpaq ədəbiyyatşünaslığı", "Qaraqalpaq - Azərbaycan ədəbi əlaqələri") bütöv bir ədəbiyyat haqqında dolğun təsəvvür yaradır. Onu da əlavə edək ki, bu fəsillərin adını təsadüfi vermədik. Başlıqlar, qoyulan problemlər türk xalqlarının bir qövmü olan qaraqalpaqların bədii düşüncəsinin elə bir tərəfi yoxdur ki, özündə ehtiva etməsin. Məhz bu əhatəlilik böyük bir zəhmətin, illərlə mənbələri izləməyin nəticəsi kimi ortaya çıxmışdır. Çağdaş zamanımızda bu istiqamətli dərsliklərə, dərs vəsaitlərinə, tipoloji təhlilləri özündə əks etdirən monoqrafik araşdırmalara xüsusi ehtiyac vardır.

Göründüyü kimi, dərslikdə ilk öncə "Qaraqalpaqıstan və qaraqalpaqlar haqqında ümumi məlumat" verilir. Bu müsbət haldır, çünki etnosun tarixi, coğrafiyası, tayfa birlikləri, tarixi abidələri, mədəniyyəti haqqında məlumat vermədən hansısa bir mərhələni araşdırmaq, monoqrafik şəkildə işləmək elə də uğurlu nəticə verə bilməz. Tədqiqatçı da bütün bunları nəzərə alaraq ədəbiyyat fonunda etnosun tarixinə, mədəniyyətinə aydınlıq gətirməklə bütöv təsəvvür yaradır. Bu, həm də təsir və maraq faktıdır. "Qaraqalpaqıstan ərazisində insanların məskunlaşması e.ə. IV-II minilliyin əvvəllərinə təsadüf edir. Ayin tikililərinin Qoy-Qırılqanqala ərazilərində qazıntıları aparılan zaman qədim yazılı abidələri tapılmışdır. (e.ə.IV əsr). Onların sırasında Topraqqala sarayı (bizim eranın III-IV əsrləri), Govur və başqa abidələri göstərmək mümkündür. Qaraqalpaqların Janıdərya hövzəsinə yayılması ilə bağlı məlumatlar da məhz qaraqalpaqlarda həm də irriqasiya obyektlərinin, evlərinin xarabalıqlarının və malikanələrinin qalıqlarının saxlanmasını göstərir. Qaraqalpaq adı ilk dəfə XVI əsrin sonlarında Orta Asiya mənbələrində çəkilir" (səh. 11). Əlbəttə, bu kiçik mətn özünün informasiya yükü, faktura zənginliyi ilə böyük bir tarixi, etnosun keçib gəldiyi yola marağı ifadə edir.

Müəllifin maraq doğuran təhlillərindən biri "qaraqalpaq" etnonimi ilə bağlıdır. Mənbələrin verdiyi məlumatlar, ayrı-ayrı alimlərin mülahizələri əsasında məsələnin mahiyyətinə varılır. Noğay // qaraqalpaq tayfa birliyi, onların bağlantıları, münasibətləri, XV-XVI əsrlərdə qaraqalpaqların Noğay ordasının tərkibində olmaları və s. faktlar əsasında özünün ifadəsini tapır. "Qaraqalpaqlarla noğayların etnik birliyini həm də bu iki xalqın içində olan qəbilə-tayfa adlarının eyniliyi də sübut edir.




Rəvayət və əfsanələrdə qaraqalpaqların noğaylarla Ural ətrafında Volqaya, Urala, Krım tərəfə birgə köç etməsi də əksini tapmışdır" (səh. 21).

Ədəbiyyatşünas alimin qaraqalpaq // qarapapaq//qaqauz etnonimləri ətrafında təhlilləri auditoriya üçün maraq doğuracaq faktlardır. "Qaraqalpaqlar da türk qəbilələrindən biri olmaqla, əvvəllər qara qoyun dərisindən papaq geyinirdilər (türk dilində "papaq" və "qalpaq" eyni sözü ifadə etməkdədir). Buna görə də "qarapapaq" və "qaraqalpaq" etnonimləri bir-birinin sinonimidir. Bundan başqa, türk dilində bu günə qədər "papaq" və "qalpaq" sözü ilə bərabər "börk" sözü də işlədilir" (səh. 46). Müəllif sözünə davam edərək yazır: "Qaraqalpaqlar əsasən Qaraqalpaqıstanda, qaqauzlar Qaqauziyada, qarapapaqlar Qərbi Azərbaycanda və Cənubi Gürcüstanda "Qazayaqlı", "Qazaxlı", "Qıpçaq", "Tatar" adları altında tanınan yaşayış məntəqələrində yaşamaqdadırlar" (səh. 47). Bu bağları, daha doğrusu, türk tayfalarının tarixi prosesdə hansı ərazilərdə yaşaması və genetik yaddaş formullarını hansı səviyyədə qoruması məsələlərini aydınlaşdırmaq üçün bu tip faktlar kifayət qədər material verir. Məsələ bununla da bitmir, eyni zamanda türkün təbiətindəki yaradıcı xarakter digər etnosların da həyatına, mədəniyyətinə təsir etmişdir. Məhz həmin məsələlərin də bir problem olaraq araşdırılması zərurət kimi müasir elmin qarşısında durur.

Tarixi mənzərənin, etnos mədəniyyətinin nələrlə səciyyələndiyinin aydınlaşması üçün folklor əlahiddəliklə görünür. Folklorda hər bir ifadənin, elementin, mətnin özünün məramı, məqsədi, informasiya funksionallığı vardır. Dastan yaradıcılığı isə türk düşüncə tərzi üçün daha çox müstəsnalıq təşkil edir. Çünki türk dastanları qədər türkün varlığını, tarixini daşıyan ikinci bir mənbə yoxdur. Söhbət qədim və orta çağ dövrü ilə bağlı qaranlıqlara aydınlıq gətirmədən gedir. "Qaraqalpaqların bədii təfəkküründə dastan yaradıcılığına uzun zaman kəsiklərində mühüm yer verilmişdir. Dastan qaraqalpaq həyatının salnaməsi rolunu oynamaqla xalq yaradıcılığının zəruri mənəvi formasını özündə əks etdirirdi. Yəqin elə buna görə də dastan qaraqalpaqların zəngin və rəngarəng bədii təfəkkür dünyasının ifadəçisi kimi çıxış edirdi. Qaraqalpaq dastanları həm ayrı-ayrı jırau, baksılar, həm də kollektiv yaradıcılığa söykənərək yaradılır, inkişaf edir, formalaşırdı" (səh. 49). "Güldursun haqqında rəvayət", "Şəhriyar," "Yedige", "Bozoğlan", "Alpamış", "Koblan", "Yer Şora", "Qurbanbəy", "Qırx qız" və s. dastan nümunələri tipologiyası və genetikası ilə türk dastan yaradıcılığının prinsiplərinə, böyük qəhrəmanlığın ifadəsinə hesablanmışdır. Ədəbiyyatşünas-alim qaraqalpaqların şifahi yaradıcılığının elə bir tərəfi yoxdur ki, ona toxunmasın. Məişət-mərasim folkloru, atalar sözü, tapmacaları (jumbakları), xalq nəğmələri, mərasim və inancları, musiqisi və tətbiqi sənəti, lətifələri, nağılları ayrı-ayrı başlıqlar altında konkret fakt və nümunələr əsasında şərh olunur. "Cadügər", "Qızılbaş", "Ögey ana", "Varlı oğlu, kasıb oğlu", "Gülziba" (sehrli), "Xeyirxah qoca və oğru ağacdələn", "Bacarıqlı cigit", "Lovğa siçan", "Qızıl quş" (heyvanlar haqqında), "Sonbeşik Həsən", "Üç qardaş", "Karlar", "Ziba və Zeynab" və s. nağıl nümunələri qaraqalpaqların zəngin nağılçılıq ənənəsindən xəbər verir.

Dərslikdə mühüm bir hissəni yazılı ədəbiyyat nümunələrinin təhlili təşkil edir. Məlum olduğu kimi, türk xalqlarının bədii düşüncəsində mühüm bir hissəni yazılı ədəbiyyat qolu tutur. Onu da etiraf edək ki, yazılı ədəbiyyatın orta əsrlər dövrünə aid nümunələr daha çox itkilərlə səciyyələnir. Böyük müharibələr, təbii fəlakətlər, xalqların köçləri, çətin həyat tərzi və s. itkilərin baş verməsini zəruri hala çevirmişdi. Ona görə də qədim dövrlərə getdikcə yazılı bədii nümunələrin azlığı daha çox hiss olunur. "Qaraqalpaq ədəbiyyatının müəllifli nümunələri XIV-XVI əsrlərə aid edilir. Onlardan bir neçəsinin adını çəkək. Noğay İttifaqında o dövrdə XV əsrdə Soppaslı Sıpıra jırau, Həsən Kayğı, Jirenşe, XVI əsrdə Ormambet kimi yazıçılar fəaliyyət göstərmişlər. Onların hamısı təkcə qaraqalpaq yazılı ədəbiyyatının öncülləri olmamış, həmçinin qazaxların, noğayların və digərlərinin tarixində, etnogenezində, mədəni və ədəbi inkişafında əsaslı rol oynamışlar" (səh. 209). Doğrudan da, bu ədəbiyyat nümunələri ortaq türk ədəbiyyatının hadisəsi kimi olduqca düzgün qiymətləndirilir. Əvvəlki dövrün yazılı nümunələrində də tədqiqatçı məhz bu yolu tutur.

XX əsr türk xalqları ədəbiyyatı fakt və material bolluğu ilə səciyyələnir. Qaraqalpaq ədəbiyyatında da belədir. X.Əhmədov, A.Beqimov, D.Nazbergenov, M.Daribayev, A.Dabılov, S.Nurumbetov, İ.Yusupov, A.Şamuradov, B.Kaipnəzərov, N.Japakov, X.Seyidov, X.Turumbetov, T.Seyidcanov, Q.Seyidnəzərov və s. onlarla sənətkar bədii düşüncənin zənginləşməsinə xidmət etmişlər. Kitabda poeziyanın, nəsrin, dramaturgiyanın inkişaf istiqamətləri konkret nümunələr əsasında şərh olunur. Bundan əlavə, qaraqalpaq folklorşünaslığı və ədəbiyyatşünaslığı haqqında aparılan təhlillər problematikası, aktuallığı ilə böyük əhəmiyyət daşıyır. Tədqiqatçının zənginliyindən, materialları lazımi qədər mənimsəmə bacarığından xəbər verir. Artıq gediləcək yol müəyyənləşdirilmişdir. Belə kitablar gələcək üçün mayak rolunu oynayır. Prof. Nizami Məmmədov-Tağısoyun "Qaraqalpaq ədəbiyyatı" dərsliyi böyük, həm də uğurlu yolun başlanğıcı istiqamətində atılan mühüm addım kimi diqqəti cəlb edir.

**Fərrux RÜSTƏMOV**
**ADPU-nun İbtidai təhsil fakültəsinin dekanı, pedaqogika üzrə elmlər doktoru, professor, əməkdar elm xadimi**

***Azərbaycan Respublikası Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun maliyyəsi əsasında hazırlanıb.***